**Təsdiq edirəm:**

**Rektor: ____________________ prof. N.İbrahimov**

**“01” [illegible] 2023-cü il**

**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİNİN**

# KEYFİYYƏT TƏMİNATI ÜZRƏ KOMİSSİYANIN ƏSASNAMƏSİ

Lənkəran Dövlət Universitetinin Elmi Şurasının 28 fevral 2023-cü il tarixli protokol №5 iclasında qəbul olunmuşdur.

**Lənkəran – 2023**

# KEYFİYYƏT TƏMİNATI ÜZRƏ KOMİSSİYANIN ƏSASNAMƏSİ

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Keyfiyyət təminatı üzrə komissiya (bundan sonra - Komissiya) daxili keyfiyyət təminatı mexanizminin yaradılması, səmərəli və müasir təhsil mühitinin inkişafı, Lənkəran Dövlət Universitetinin (bundan sonra-LDU) fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması məqsədilə Universitetin rektoru tərəfindən 05.01.2023-cü il tarixdə (Əmr № -4/03) yaradılmışdır.

1.2. Komissiya LDU-da tədrisin və tədrisə dəstək xidmətlərinin (psixoloji, tyutor xidməti, kitabxana, yataqxana, yeməkxana və s.) keyfiyyətinin yüksəldilməsi, fəaliyyətinə nəzarəti və davamlı inkişaf funksiyalarını icra edən tələbəyönümlü tədris mühitinin dəstəklənməsi, tədris-metodiki işin məzmun, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələrin işlənməsi üçün səlahiyyətləri olan müvəqqəti kollegial orqandır. Komissiya tədris prosesi ilə bağlı metodiki materialların keyfiyyətinə, dövlət standartlarının tətbiqinə, eləcə də, institusional və proqram akkreditasiyası üzrə özünütəhlil nəticələri haqqında hesabatın hazırlanmasına bilavasitə nəzarət edir.

1.3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında" Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Təhsil Nazirliyinin əmr və təlimatlarını, digər müvafiq qanunvericilik aktlarını, LDU-nun Nizamnaməsini, Strateji İnkişaf Planını, Elmi Şuranın qərarlarını, təhsil, elm və innovasiyalar, inzibati-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ hüquqi aktları, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"ı (ESG), və rektorun əmrlərini rəhbər tutur.

1.4. Komissiya müxtəlif fakültələri təmsil edən bir qrup əməkdaşdan təşkil olunmuşdur və komissiyaya LDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru sədrlik edir.

1.5. Komissiya öz fəaliyyəti barədə hesabatı rektora və zəruri hallarda LDU-nun Elmi Şurasına təqdim edir.

## 2. KOMİSSİYANIN ƏSAS FUNKSİYALARI

2.1. LDU-nun daxili keyfiyyət təminatı sistemi üzrə Fəaliyyət Planının Strateji İnkişaf Planındakı hədəflərə uyğunluğu vəziyyətinin nəzərdən keçirilməsinə və icrasına, eləcə də, keyfiyyət mədəniyyətinin (hər bir kəsin keyfiyyət baxımından bərabər məsuliyyəti bölüşməsi) təmin olunmasına dəstək olacaq işləri həyata keçirir;

2.2. Keyfiyyət təminatı sisteminin səmərəli fəaliyyətinin təşkilində iştirak edir;

2.3. Tədris-metodiki işin məzmunu, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələr hazırlayır və onların icrasının təşkilinə çalışır;

2.4. Tədrisin müəyyən olunmuş qaydalar çərçivəsində təşkilinə nəzarət edir, tədris-proqram sənədlərinin (fənn proqramı və sillabuslar) və tədris-metodiki materialların keyfiyyətini təmin edir və tədris prosesinin gedişatına nəzarət (monitorinq) edir.

2.5. Tədrisin təşkilinə, tədris-proqram sənədlərinin və metodiki materialların keyfiyyətini nəzarətdə saxlayır;

2.6. Keyfiyyət siyasəti əsasında hazırlanmış fəaliyyət planının icrasına nəzarət edir, digər struktur bölmələrin fəaliyyətinin keyfiyyət baxımından qiymətləndirilməsi metodologiyasını, meyarlarını müəyyənləşdirir və müəyyən olunmuş metodologiya və meyarlar əsasında qiymətləndirilməsini müzakirə edir və hesabatlar hazırlayır;

2.7. Tədrisin keyfiyyətini qiymətləndirmək üçün tədris ili ərzində təhsilalanlar və məzunlar arasında müxtəlif mövzularda keçirilmiş sorğuların nəticələrini analiz edərək aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr verir və onların icrasına nəzarət edir;

2.8. Təhsil proqramlarının icrasının keyfiyyətini öncədən hazırlanmış meyarlar əsasında qiymətləndirir;

2.9. Tələbəyə dəstək xidmətlərinin (tibbi, psixoloji, tyutor xidməti, yataqxana, yeməkxana və digər xidmətlər) səmərəliliyini qiymətləndirir və təkliflər verir;

2.10. Akademik heyətin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi, təhsil və tədqiqat işləri arasında əlaqənin gücləndirilməsinə yönəlmiş elmi fəaliyyətin həvəsləndirilməsi, tədrisdə innovasiyaların tətbiqi və yeni texnologiyalardan istifadənin stimullaşdırılması üçün təkliflər hazırlayır;

2.11. LDU-da strukturlararası kommunikasiyanın səmərəliliyini qiymətləndirir və təkliflər verir;

2.12. Bakalavriat, magistratura və doktorantura təhsil səviyyələri üzrə İnstitusional və Proqram Akkreditasiya Meyarları əsasında şöbələrin hesabatının formalaşmasına dəstək olur;

2.13. Tədrisin keyfiyyətinin təminatı və artırılmasına dair tədbirlərdə (təlim, seminar, dəyirmi masa müzakirələri və s.) iştirak edir;

2.14. Daxili özünütəhlil və ya qiymətləndirməni təşkil edir, uyğunsuzluqların təhlilini aparır və aradan qaldırılması ilə əlaqədar təkliflərin hazırlanmasında iştirak edir;

2.15. İnstitusional və proqram akkreditasiyası üzrə özünütəhlil nəticələri haqqında hesabatın hazırlanmasında iştirak edir;

## 3. KOMİSSİYANIN HÜQUQLARI

3.1. Vəzifə və funksiyaların yerinə yetirilməsi üçün zəruri olan informasiya və sənədləri müvafiq strukturlardan toplamaq;

3.2. Keyfiyyətin artırılması istiqamətində müvafiq struktur bölmələrini və digər maraqlı tərəfləri bu tədbirlərin həyata keçirilməsinə cəlb etmək;

3.3. Yaranmış zərurətlə əlaqədar olaraq, dekanlıq, kafedra, auditoriya və laboratoriyalara daxil olmaq, nəzarət və qiymətləndirmə tədbirlərini həyata keçirmək;

3.4. Təhsildə keyfiyyətin artırılmasına dair təklifləri Komissiyanın sədri və Keyfiyyət Təminatı Şöbəsinə müzakirə üçün təqdim etmək;

3.5. Monitorinq aparmaq və monitorinq nəticəsində hazırlanmış analitik təhlil hesabatlarını Keyfiyyət Təminatı Şöbəsinə təqdim etmək;

3.6. Sorğular aparmaq və sorğuların nəticəsində hazırlanmış analitik təhlil hesabatlarını Keyfiyyət Təminatı Şöbəsinə təqdim etmək;

3.7. LDU-nun struktur bölmələrininin fəaliyyəti ilə əlaqədar məsələlərin müzakirəsində iştirak etmək;

## 4. KOMİSSİYANIN FƏALİYYƏTİNİN TƏŞKİLİ

4.1. Komissiya bu Əsasnamə ilə müəyyən olunan vəzifələrin icrasını təmin edir.

4.2. Komissiya öz vəzifə borclarının və funksiyalarının icrasını təmin etmək məqsədilə öz işini LDU-nun digər struktur bölmələri, habelə universitetin nəzdində olan təşkilatlar ilə qarşılıqlı əlaqə şəklində qurur.

4.3. Komissiyanın sədri komissiya üzvləri arasında müəyyən iş bölgüsü aparır və hesabatlara birbaşa nəzarət edir.

4.4. Komissiyanın tərkibində olan dəyişikliklər Komissiya sədrinin təqdimatı əsasında rektor tərəfindən təsdiq edilir.

## 5. YEKUN MÜDDƏALAR

5.1. Əsasnamə LDU-nun Elmi Şurasının qərarına əsasən rektor tərəfindən təsdiq edilir.

5.2. Əsasnaməyə əlavə və dəyişikliklər LDU-nun Elmi Şurasının qərarı ilə yerinə yetirilir.

5.3. Azərbaycan Respublikasının qanunvericiliyi, LDU-nun Nizamnaməsi ilə bu Əsasnamənin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.

5.4. Əsasnaməyə edilən dəyişikliklər və əlavələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparılır.

| | |
|---|---|
| Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor | dos. İdrak Əsgərov |
| Elm və innovasiya məsələləri üzrə prorektor | dos. Elvin Əliyev |
| Elmi katib | Allahşükür Quliyev |
| Keyfiyyət təminatı şöbəsinin müdiri | dos. Asif İmanlı |